# "İRS" jurnalının italyan dilində növbəti nömrəsi nəşr edilib

**Azərbaycanın zəngin tarixi və mədəni irsini dünyaya tanıdan "İRS" beynəlxalq jurnalının italyan dilində növbəti nömrəsi işıq üzü görüb.**




Jurnalın bu sayında ötən ilin noyabrında Bakının evsahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) əhəmiyyətindən bəhs olunur, Azərbaycanda mühüm qlobal ekoloji problemlərin müzakirə edildiyi vurğulanır. Ölkəmizin həyata keçirdiyi bərpaolunan və "yaşıl enerji" layihələrindən, Qarabağda və Şərqi Zəngəzurdakı "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarına əsaslanan bərpa və yenidənqurma işlərindən, "yaşıl enerji" zonasının yaradılması istiqamətində atılan addımlardan bəhs edilir.

Jurnalda İtaliyanın Azərbaycandakı səfiri Luka Di Canfrançeskonun iki ölkə münasibətlərindən, innovasiyalar sayəsində genişlənən körpü, mədəni və akademik əlaqələr barədə fikirləri yer alıb. Səfir İtaliya ilə Azərbaycan arasında dostluğun dərin köklərinin olduğunu, ən yüksəksəviyyəli çoxsaylı səfərlər sayəsində ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. Bundan başqa, jurnalda məşhur memar Zaha Hadidin layihəsi olan Bakıdakı Heydər Əliyev Mərkəzi haqqında məlumatlara yer verilib. Azərbaycanın dünyanın ən qədim kilsələrindən biri olan Alban Apostol Kilsəsinin vətəni olduğu bildirilir, Alban-Udi Xristian Dini İcmasından bəhs edilir. Həmçinin Azərbaycanın üzləşdiyi mina problemi, işğaldan azad olunmuş ərazilərin mina və partlamamış hərbi sursatlarla çirklənmə səviyyəsi barədə məlumatlar oxucuların diqqətinə çatdırılır.

Jurnalda Azərbaycan qadınlarının hər zaman ölkənin gələcəyinin formalaşmasında həlledici rol oynadığı qeyd olunur, ölkəmizin inkişafına və tərəqqisinə töhfə verən qadınlar haqqında ətraflı məlumat verilir. Azərbaycan musiqisi və muğamı haqqında, eyni zamanda milli mətbəx nümunələrimiz və içkilər barədə məlumatlar yer alıb.

Azərbaycan.- 2025.-14 may (№98).- S.11.